# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ ŞAİR-PUBLİSİST ƏLİ RZA XƏLƏFLİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

**Mingəçevir Dövlər Universitetinin Təhsil fakültəsində Azərbaycan poeziyasının və nəsrinin bu gün ən şox sevilən nümayəndələrindən biri - Əli Rza Xələfli ilə tələbələrin görüşü keçirilmişdir.**



Tələbələr əvvəlcə Ə. Xələflinin universitet kitabxanasına hədiyyə etdiyi 100-ə yaxın bədii əsər və monoqrafiyadan ibarət sərgiyə baxmışlar.

Görüşü giriş sözü ilə Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının müdiri siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Esmira Cəfərova açmış, tələbələri görkəmli şair-publisist Əli Rza Xələflinin bədii yaradıcılığı ilə tanış etmişdir:

" 70-dən artıq kitabın müəllifi Əli Rza Xələfli 1980-ci ildən mətbuatda çalışır, Əli Rza Xələflinin yaradıcılığı barədə 10-dan artıq monoqrafiya yazılmışdır .

1999-cu ildən "Kredo" qəzetinin baş redaktorudur.

Ə. Xələfli 2002-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüş, dəfələrlə Azərbaycan Yazıçılar Birliyinin mükafatları ilə təltif olunmuşdur.

Əli Rza Xələfli Prezident təqaüdçüsüdür ( 2010-cu il.) ".

Dosent Esmira Cəfərova ilk sözü hörmətli qonağa-görkəmli şair, publisist Əli Rza Xələfliyə vermişdir.

Tələbələr Əli Rza Xələflini alqışlarla qarşılamış, onun çıxışını diqqətlə dinləmişlər.



Əli Rza Xələfli əvvəlcə öz pedaqoji fəaliyyətindən danışdı. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, ata-baba yurdu, doğma Cəbrayılın Şahvəli, Tatar və Aşağı Xələfli kəndlərində müəllim işləmişdir. Həmin illərdəki pedaqoji failiyyətinə görə "Qabaqcil maarif xadimi" fəxri adına layiq görülmüşdür.

Ə. Xələfli tələbələrə yaxşı oxumağı, elmlərin sirlərinə səylə yiyələnməyi, Vətənin hər qariş torpağını göz bəbəyi kimi sevməyi və qorumağı tövsiyə etdi.

Sonra Əli Rza Xələfli ədəbi yaradıcılığından söhbət acdı, Baş redaktoru olduğu "Kredo" qəzetinin fəaliyyəti haqqında məlumat verdi.

Görkəmli şair-publisist Əli Rza Xələfli tələbələrə yeni şeirlərini oxudu.

Görüş iştirakçıları tanınmış şairin şeirlərini alqışlarla qarşıladılar.

Humanitar fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafov Əli Rza Xələflinin ədəbi yaradıcılığından ətraflı danışdı: " Əli Rza Xələfli istedadlı şair, ədəbiyyatşünas-tənqidçi, peşəkar jurnalist, gözəl təşkilatçı, həssas, qayğıkeş,



alicənab insan, sözün əsl mənasında ziyalıdır.

Böyük istedadi ilə yanaşı xüsusi zəhmətkeşliyi Əli Rza Xələflinin nüfuzunu həmişə yüksəltmiş, şəxsiyyətinə hörmət gətirmişdir.

Əli Rza Xələflinin "Damcılı", Göyəzəndən gələn səs" poemaları çağdaş zamanımızın böyük salnaməsidir. Bu əsərlər keçmişi və gələcəyi özündə ehtiva edir, milli yaddaşa kök salır, əxlaqi dəyərlərin yaşarlığını təmin edir.

Əli Rza Xələfli şeirlərini müxtəlif janrlarda yazır. Onun son illərdə qələmə aldığı qəsidə və məsnəvilər böyük maraq doğurur.

Ə. Xələflinin bayatıları da çox sevilir. Bü bayatıların hər sözünə, hər misrasına Qarabağ həsrəti - ata yurdunu məcburən tərk edən şairin həsrəti, nisgili çilənib:

.... Gözləri yolda qalan  
Yarımcan Diriyəm mən.  
Və ya:  
Dən atdım, alaq bitdi,  
Bəxtimin zəmisində.

" Şair azacıq qəm-qüssədən kənar olanda xəyalları Azərbaycanın bütün guşələrinə, eləcə də " Bilmirəm haralıyam, torpağım, daşım qərib" deyən Kərkük ellərinə baş vurur ( professor Qəzənfər Paşayev):

Kərkükdə Məndəli var,  
Yurd sarı min dəli var.  
Sizə könül bağlayan  
Burda da mən dəli var.

Akademik Nizami Cəfərov çıxışlarının birində çox maraqlı bir ifadə işlədib. Akademik deyib ki, Əli Rza Xələfli " diz üstə" yazan sənətkardır. Yoxsa vaxt onun üzünə durardı. Əli Rza Xələfli zamanın ahəngini duyur, yaradıcılıq mühitini də bu ahəngin ritmlərinə uyğun qurur. Nə yazırsa şifahi şəkildə yaradır. Elə ona görə də onun yaradıcılığı şifahi xalq yaradıcılığı kimi şirin və cazibədardır ".

Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri şair İsmayil (Mərcanli) İmanzadənin çıxışı maraqla qarşılandı.

Əli Rza Xələfli ilə İsmayıl Mərcanlının tanışlığı və dostluğu hələ 70-ci illərdən başlayıbdır. 80-ci illərdə doğma Cəbrayilda bir ədəbi dərnəkdə çıxış ediblər,



Cəbrayıl rayon qəzetində işləyiblər. 30 il ata yurdunun, doğulduqlari, boy atdıqları torpağın həsrətilə yaşayıblar.

Bu günlərdə hər iki şair Azərbaycan oğullarının qəhrəmanlığı ilə azad olunmuş ata ocağı - Cəbrayila getmiş, doğma torpaqların havasını udmuş, suyunu içmişlər...

İndi hər iki şairin yaradıcılığında, necə deyərlər, " illərin həsrətindən qurtulan" yeni bir vüsal mərhələsi başlanmışdır.

İsmayıl (Mərcanlı) İmanzadə əziz dostu Əli Rza Xələfliyə həsr etdiyi "Ulu Sənət Məbədidir Tikdiyin..." adlı şeirini oxudu:

Dünyaya göz açdın Dağ Xələflidə,  
Səni xalq edənə əhsən, ay Dədə!  
Gəzib dolaşmadın heç vaxt, heç vədə,  
Sənətin tapdanmış qırağın, Qağa!

Sevdalı qəlblərdə sözdü əkdiyin,  
Ulu sənət məbədiymiş tikdiyin.  
Bədxahın, nadanın qəddin büküyün  
Hər kəlmən paslanmaz "yarağın", Qağa!

Şeirin misra-misra gəldikcə dada.  
Qovuşdun ən halal şöhrətə-ada.  
Həm könül mülkündə, həm "Kredo"da.  
Günəştək nur saçdı çırağın, Qağa!

Elə əzəl gündən addımın mətin,  
Yol tapmaz qəlbinə nə qəzəb, nə kin...  
Tanrı sovqatıdır şairlik təbin,  
Və bir də qələmin, varağın, Qağa!

Yurda əmanətsən Gordu Babadan,  
Ruhun təzələnir söküləndə dan.  
Sənət gülşənində ismin bir ünvan,  
Gəlir hər tərəfdən sorağın, Qağa!

Peşəkar jurnalist, "El" Televiziyasının "Zamanında" verilişinin baş redaktoru İnqilab Şirinbəyli qeyd etdi ki, Əli Rza Xələfli həm də istedadlı tədqiqatçıdır.

Onun heç bir üsluba bənzəməyən, tamamilə orijinal yaradıcılıq üslubu var. Əli Rza Xələflinin "Tənqidçinin azərbaycançılıq ideali" kitabı həmin üslubun



növbəti uğurlu məhsuludur. Əsərdə insana inam var, insanın inamını qorumaq hissi var...

Respublikanın əməkdar müəllimi Könül Aydın çıxışını bu sözlərlə başladı:

" Əli Rza Xələfli yaxşıları unudulmağa qoymur. Çox istedadlı bir gəncin həyat yoluna işıq tutan " Bir bülbülün türküsü" əsərində olduğu kimi".

Erkən yaşda dünyasını dəyişən, gözəl ruh və düşüncə sahibi Əbil Etibaroğlunun nakam taleyinə elegiya ruhunda yazılmış "Bir bülbülün türküsü" poeması oxucunun gözləri qarşısında yalnız bir gənci yox, onun timsalında istedadlı, vətənpərvər, türk ideologiyasına vurğun azərbaycanlının ümumiləşmiş obrazını yaradır.

"Bir bülbülün türküsü" poeması ömrü yarımçıq qalmış zəka sahibi olan bir gənc alimin tale faciəsinə həsr olunmuş hüzündür, qəmdir, kədərdir, lirik-dramatik faciədir... Başucalığı gətirəcək bir ömürə həzin baxışdır:

İmamverdi Dədədən yadigar inci qaldı,  
Azər Turan qəlblərdə əbədi məsgən saldı...  
...İmamverdi Dədənin cənnətdəki bağında,  
Əbil də söz bülbülü... Ötər öz budağında.

*Davamı 3-cü səhifədə*

# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ ŞAİR-PUBLİSİST ƏLİ RZA XƏLƏFLİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

*Əvvəli 2-ci səhifədə*



Filologiya üzrə fəlsəfə doktoru Səadət Ağakişiyeva qeyd etdi ki, Əli Rza Xələfli həm istedadlı şair, həm də gözəl publisistik əsərlərin müəllifidir. Dilçi alimlər haqlı olaraq belə bir nəticəyə gəlir ki, Əli Rza Xələflinin publisistikası da poeziyadır (akademik Tofiq Hacıyev), Əli Rza publisistikasında da şairdir ( professor Qəzənfər Kazımov).

Sonra söz Mingəçevir Dövlət Universitetinin tələbələrinə verildi. Onlar Əli Rza Xələflinin Vətənə, onun bir parçası olan Qarabağa, igid və qəhrəman Azərbaycan oğullarına həsr olunmuş şeirlərini söylədilər: Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Günel Nəcəfli ("Yaddaş yanğısı"), həmin ixtisasın II kurs tələbəsi Nurlana Allahverdiyeva ("Sözü daşa yazaram"), Xarici dil ixtisası üzrə I kurs tələbəsi Hüseyn Cəfərov ("Gedək Tanrı dağına") və İqtisadiyyat ixtisası üzrə I kurs tələbəsi Əfqan Məmmədovun ("Yollar məni yormadı") söylədiyi şeirlər alqışlarla qarşılandı.

Əli Rza Xələfli tələbələrin çoxsayli suallarını



cavablandırdı.

Axırda görüş iştirakçıları xatirə şəkilləri çəkdirdilər.

## Şəhidlik zirvəsinə ucalmış məzunlarımız

Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində 44 günlük Vətən Müharibəsində qazanılan tarixi Zəfər Azərbaycan xalqının gücünü, birliyini və yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirdi. Əzəli və doğma torpaqlarımızı işğaldan azad edərək otuzillik yurd həsrətinə son qoyan cəsur zabit və əsgərlərimiz canları və qanları bahasına tariximizin şanlı səhifələrini yazdılar.

Tarixi zəfərimizin qazanılmasında Mingəçevir Dövlət Universitetinin (MDU) 4 əməkdaşı, 120-dən çox tələbə və məzunu iştirak edib. 6 məzun - Oruc Nəcəfli, Kənan Abdullayev, Əzəmi Hüseynov, Faiq Həsənov, Yusif Cəfərov və Qorxmaz İsgəndərov şəhdilik zirvəsinə ucalıbdır.

Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizlə qürur duyur və onların əziz xatirəsini daim dərin ehtiram və minnətdarlıq hissi ilə yad edirik.

Oruc Nəcəfli 6 oktyabr 1989-cu ildə Yevlax rayonunun Tanrıqulular kəndində anadan olub. Mingəçevir şəhərində Nizami Gəncəvi adına 8 saylı tam orta məktəbi bitirdikdən sonra 2007-2011-ci illərdə Mingəçevir Politexnik İnstitutunda (indiki MDU) İnformatika və hesablama texnikası ixtisası üzrə ali təhsil alıb.

2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı O.Nəcəfli Suqovuşanın azadlığı uğrunda, həmçinin Tərtər-Ağdərə istiqamətində gedən




döyüşlərdə iştirak edib və 2020-ci il noyabrın 6-da şəhidlik zirvəsinə ucalıbdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən

O. Nəcəfli "Vətən uğrunda" medalı ilə təltif edilib.

Kənan Abdullayev 3 dekabr 1990-cı ildə Mingəçevir şəhərində anadan olub. Mingəçevir şəhər 16 nömrəli orta məktəbi bitirdikdən sonra 2011-2015-ci illərdə Mingəçevir Politexnik İnstitutunda (indiki MDU) İqtisadiyyat fakültəsində ali təhsil alıb.

Vətən müharibəsi zamanı leytenant K. Abdullayev Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib və 2020-ci il oktyabrın 16-da şəhid olubdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən K.Abdullayev "Vətən uğrunda", "İgidliyə görə" medalları və üçüncü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Əzəmi Hüseynov 29 avqust 1992-ci ildə Mingəçevir şəhərində anadan olub. Mingəçevir şəhərində 14 nömrəli tam orta məktəbi bitirdikdən sonra 2010-2014-cü illərdə Mingəçevir Politexnik İnstitutunda (indiki MDU) Energetika fakültəsində ali təhsil alıb.

Vətən müharibəsi zamanı Ə.Hüseynov Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib və 2020-ci il oktyabrın 8-də şəhid olubdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən Ə.Hüseynov "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Faiq Həsənov 28 iyul 1990-cı ildə Bakı şəhərində anadan olub. Səbail rayon 189-190 saylı orta məktəbdə təhsilini bitirdikdən sonra 2008-2012-ci illərdə Mingəçevir Politexnik İnstitutunda (indiki MDU) İqtisadiyyat fakültəsində ali təhsil alıb.

Vətən müharibəsi zamanı gizir F.Həsənov Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib və 2020-ci il oktyabrın 5-də şəhid olubdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən F.Həsənov "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə" və Müdafiə Nazirliyinin müvafiq əmrinə əsasən "Şücaətə görə" medalları ilə təltif edilib.

Yusif Cəfərov 25 aprel 1996-cı ildə Şirvan şəhərində anadan olub. Şirvan şəhər 2 nömrəli tam orta məktəbi bitirdikdən sonra 2013-2017-ci illərdə MDU-nun İqtisadiyyat fakültəsində ali təhsil alıb.

Vətən müharibəsi zamanı Y.Cəfərov Cəbrayıl, Zəngilan və Qubadlının işğaldan azad olunması uğrunda döyüşlərdə iştirak edib və 2020-ci il noyabrın 4-də şəhid olubdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Qorxmaz İsgəndərov 23 oktyabr 1999-cu ildə Ağcabədi rayonunun Taxta-Körpü qəsəbəsində anadan olub. Əslən Laçın rayonundandır. 2017-2021-ci illərdə MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsində Sənayenin təşkili və idarə edilməsi ixtisasında təhsil alıb.

2022-ci ilin 12 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin törətdiyi geniş miqyaslı təxribatların qarşısının alınması zamanı şəhid olubdur.

## MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ YENİ DÖVRÜN UNİVERSİTETİNƏ ÇEVRİLİR !

*(Mingəçevir Dövlət Universitetinin rektoru hörmətli Şahin Bayramovdan MDU-nun İnkişaf Strategiyası haqqında məlumat verməyini xahiş etmişik ).*

**ŞAHİN VAQİF OĞLU BAYRAMOV**
**Mingəçevir Dövlət Universitetinin rektoru**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**




Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2019-cu il tarixli Sərəncamı ilə Mingəçevir Dövlət Universitetinin rektoru təyin edilmişdir.

*Davamı 4-cü səhifədə*

*Əvvəli 3-cü səhifədə*



Şahin Vaqif oğlu Bayramov bundan əvvəl Milli Məclisin Elm və təhsil komitəsinin eksperti, Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektoru, Elm və Təhsil Nazirliyinin Elm, ali və orta-ixtisas təhsili şöbəsinin müdir müavini vəzifələrində çalışmışdır.

2012-ci ildə "Avropa İttifaqının Qonşuluq Siyasəti və Azərbaycanın iqtisadi məkanına inteqrasiyası problemləri" mövzusunda dissertasiya müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Şahin Vaqif oğlu Bayramov Avropa İttifaqının Erasmus + layihələrində Təhsil Nazirliyinin koordinatoru, Avropa Ali Təhsil Məkanı Bolonya İşçi Qrupunun (BFUC) Azərbaycan üzrə ölkə koordinatoru, BFUG-nin Qlobal Siyasət Dialoqu Komitəsinin üzvü olmuş, "Azərbaycanda Ali Təhsil sisteminin İnkişafına Dəstək" Tvinninq Layihəsinə rəhbərlik etmişdir.

20152016-cı tədris ilində ABS Dövlət Departamentinin "Fulbright" təqaüdü çərçivəsində Pensilvaniya Dövlət Universitetində "Ali təhsilin idarə edilməsi və akademik liderlik" ixtisası üzrə peşəkar təhsil almışdır.

Beynəlxalq Universitetlər Assosiasiyasının İdarə Heyətinin üzvü, Çinin Lancou Maliyyə İqtisad Universitetinin və Qırğız İqtisad Universitetinin Fəxri Professorudur.

"Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" mövzusunda Erasmus+ layihəsinin rəhbəridir.

## MDU-nun YENİ LOQOSU

Mingəçevir Dövlət Universitetinin modernləşdirilməsi məqsədilə rebrendinq həyata keçirilib və universitetin yeni korporativ stili təsdiq olunmuşdur. Korporativ stildə MDU-nun yeni loqosu, rənglər, bədii tərtibat, brendin ümumi ideoloji məzmunu və digər elementlər öz əksini tapıb.

Loqo universitetin yerləşdiyi şəhərin - Mingəçevirin baş hərfini əks etdirir.

Loqo elm və bilik mənbəyi olan kitaba bənzəyir və universitetin uğurlu gələcəyə açılan qapı olduğunu əks etdirir...

MİNGƏÇEVİR
DÖVLƏT
UNİVERSİTETİ

Yeni korporativ stildə universitetin rəngləri sarı və mavi rəng seçilib. Sarı rəng enerji rəmzi olan Günəşi, mavi rəng isə Kür çayını bildirir.

*( Strategiya Mingəçevir Dövlət Universiteti (MDU) Elmi Şurasının 30 yanvar 2024-cü il tarixli iclasının müvafiq qərari ilə təsdiq olunmuşdur).*

# "MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ 2030: İNKİŞAF STRATEGİYASI"

Mingəçevir Dövlət Universitetinin 2030-cu ilə qədər əsas fəaliyyəti və gələcək hədəflərini özündə ehtiva edən bu sənədin hazırlanması zamanı "Azərbaycan 2030: sosial-iqtisadı inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikasının 2022-2026-ci illərdə sosial- iqtisadı inkişaf Strategiyası, Azərbaycanda təhsilin inkişafı ilə bağlı müəyyən edilmiş dövlət siyasəti, milli və beynəlxalq ali təhsil məkanında müşahidə olunan trendlər, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" və MDU-nun real və potensial imkanları nəzərə alınmışdır.

Mingəçevir Dövlət Universiteti yeni dövrün universitetinə çevrilir. Universitetin sloqanı - "Müasir təhsil, doğru seçim, uğurlu karyera"; universitetinin missiyası - "Dayanıqlı inkişafa töhfə verən ixtisaslı kadrlar hazırlamaq, nəticəyönümlü elmi tədqiqatlar aparmaq və cəmiyyətə faydalı sosial xidmətlər göstərmək"; Vizion -"Təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilmək"dir.

Universitet öz missiyasını yerinə yetirmək və müəyyən etdiyi vizyonu reallaşdıra bilmək naminə aşağıdakı əsas dəyərlərə sadiqliyini ifadə edir: demokratik və hüquqi prinsiplərə sadiqlik, akademik etika, ictimai həssaslıq və sosial məsuliyyətlilik, milli hədəflərə töhfə, əməkdaşlıq və paylaşma ruhu, keyfiyyətlilik, layiqlilik, millilik və dünyəvilik, səmərəlilik, təbiətə və ətraf mühitə həssaslıq, şəffaflıq və hesabatlılıq, dəyişikliklərə və yeniliklərə açıqlıq, təşkilati mənsubiyyətə bağlılıq.

" İnkişaf Strategiyası" özündə 7 blok - Təhsil, Tədqiqat, İnnovasiya, Sosial, Dayanıqlı inkişaf və rəqəmsallaşma, İnstitusional inkişaf, Beynəlmiləlləşmə;

7 məqsəd, 27 hədəf, 236 fəaliyyət, 91 əsas performans göstəricisi birləşdirir.

Mingəçevir Dövlət Universitetinin inkişaf strategiyasında nəzərdə tutulmuş məqsədlər bunlardır: Yüksək keyfiyyətli ali təhsil xidmətləri göstərən qabaqcıl milli universitetlərdən biri olmaq; ölkənin və bölgənin inkişafına davamlı töhfə verən nəticəyönümlü elmi-tədqiqat fəaliyyətləri həyata keçirmək potensialına sahib olmaq; regional innovasiya ekosisteminin drayverinə çevrilmək; sosial məsuliyyəti və xidmətlərin keyfiyyətini artıraraq cəmiyyətin hərtərəfli inkişafına davamlı töhfə vermək; dayanıqlı inkişaf əsaslı "yaşıl" və "ağıllı" universitetə çevrilmək və bu sahədə ölkənin lider universitetləri sırasında yer almaq; daha güclü institusional potensiala, çevik və səmərəli idarəetmə sisteminə sahib olmaq; beynəlmiləlləşmə səviyyəsi davamlı artan universitetə çevrilmək.

Qeyd etdiyimiz kimi əsas məqsədlərimizdən biri - Mingəçevir Dövlət Universitetini yüksək keyfiyyətli ali təhsil xidmətləri göstərən qabaqcıl milli universitetə çevirməkdir.

Bu məqsədi reallaşdırmaq üçün əsas hədəflərimiz - təhsilalanlar üçün cəmiyyətin və əmək bazarının ehtiyaclarına uyğun zəruri bilik və bacarıqların effektiv şəkildə əldə edilməsinə kompleks şərait yaradan keyfiyyətli tədris mühitini təmin etmək və onu davamlı surətdə təkmilləşdirmək; akademik heyətin səriştəliyini yüksəltmək, tələbə qəbulu üzrə kəmiyyət və keyfiyyət göstəricilərinin davamlı artımına nail olmaq, ixtisasların (proqramların) sayını və ali təhsil səviyyələri üzrə əhəmiyyətini artırmaq, onları beynəlxalq akkreditasiyadan keçirmək.

İnkişaf strategiyasında ikinci məqsəd ölkənin və bölgənin inkişafına davamlı töhfə verən nəticəyönümlü elmi-tədqiqat fəaliyyətləri həyata keçirmək potensialına sahib olmaqdır. Bu məqsədin həyata keçirilməsi üçün 4 hədəf müəyyən olunmuşdur. Birincisi, elmi kadr potensialını inkişaf etdirmək, elm və təhsilin inteqrasiyasını gücləndirmək; ikincisi, milli və beynəlxalq arenada elmi nəşrlərin keyfiyyətini və kəmiyyətini artırmaq, multidisiplinar xarakterli nüfuzlu beynəlxalq elmi konfransa sahib olmaq; üçüncüsü, universiteti regionun konkret inkişaf problemlərinin həllinə töhfə verən " beyin mərkəzi"nə çevirmək, sifarişlər və qrantlar əsasında həyata keçirilən tədqiqat layihələrinin sayını artırmaq; dördüncüsü, magistratura və doktorantura səviyyələrində elmi fəaliyyətlərin keyfiyyətini yüksəltmək, "Tədqiqatçı tələbə" konsepsiyasını inkişaf etdirərək tələbələrin tədqiqat fəaliyyətlərində aktivliyini artırmaq.

Mingəçevir Dövlət Universitetinin məqsədlərindən biri regional innovasiya ekosisteminin drayverinə çevrilməkdir.

Bunun üçün təhsil və tədqiqat fəaliyyətlərində innovasiya yönümlüyü və sahibkarlıq yanaşmasını gücləndirmək əsas hədəfimizdir.

İnnovasiya fəaliyyətini dəstəkləyən mexanizmlər yaratmaq və tətbiq etmək;

universitet-sənaye və universitet-dövlət əməkdaşlığı çərçivəsində regional texnoloji inkişafa töhfə verən innovasiya aktivliyini gücləndirmək; təhsil alanların innovasiya prosesində fəal iştirakına nail olmaq da əsas hədəflərimizdən sayılır.

"Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf Strateğiyası"nda göstərilən məqsədlərdən biri sosial məsuliyyəti və xidmətlərin keyfiyyətini artıraraq cəmiyyətin hərtərəfli inkişafına davamlı töhfə verməkdir.

Bu məqsədə çatmaq üçün Universitetin cəmiyyətdə maarifləndirici və məsləhətçi mövqeyini gücləndirmək; sosial fəaliyyətdə çoxşaxəliliyi, inklüzivliyi və davamlığı təmin etmək ; tələbələr və məzunlarla işi təkmilləşdirmək, gənclərin karyera və şəxsi inkişafına dəstək sahəsində fəaliyyətlərin effektivliyini artırmaq; cəmiyyətin ehtiyaclarına uyğun ömürboyu təhsil xidmətləri göstərən regional mərkəzə çevrilmək əsas hədəfimizdir...

Qarşıya qoyduğumuz məqsədlərdən biri dayanıqlı inkişaf əsaslı "yaşıl" və "ağıllı" universitetə çevrilmək və bu sahədə ölkənin lider universitetləri sırasında yer almaqdır.

Dayanıqlılıq prinsipləri əsasında resurslardan effektiv istifadəni və sağlam ətraf mühiti təmin edən "yaşıl kampus"a və "yaşıl idarəetmə"yə sahib olmaq hədəfimizdir.

Regional, milli və beynəlxalq səviyyədə dayanıqlı inkişafa töhfə verən bilik, bacarıq, dəyər və davranışlar ötürən, "dayanıqlı inkişaf" təfəkkürlü kadr hazırlığını təmin edən ali təhsil mühitini formalaşdırmağa və inkişaf etdirməyə çalışırıq.

Universitetin bütün istiqamətlər üzrə fəaliyyətində rəqəmsal və süni intellekt texnologiyalarının geniş tətbiqi əsasında "ağıllı kampus"a və "ağıllı idarəetmə sistemi"nə sahib olmağı hədəfləyirik.

MDU yeni dövrün universitetinə çevrilir!

"Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf strategiyası" MDU-nun professor-müəllim heyəti, mütəxəssislər, tələbə kollektivi, Mingəçevir ziyalıları, ictimaiyyət nümayəndələri ilə müzakirə edilmiş, strategiyada nəzərdə tutulan bütün məqsəd, hədəf və fəaliyyətlər barədə geniş fikir mübadiləsi aparılmış, rəy və təkliflər dinlənilmişdir.

MDU-nun yüksək akademik və tədqiqat potensialına malik olan professor-müəllim heyəti sözügedən strategiyanın uğurla icrasında fəal iştirak edəcəklərini bildirmişlər.

**(Davamı var)**

**MDU ilə bağlı materialları hazırladı:**

**Namaz MANAFOV, Mingəçevir Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru**

